**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ƏSGƏROV RÜSTƏM AKIF OĞLU**

# AZƏRBAYCANIN QEYRİ-NEFT SEKTORUNA İNVESTİSİYA QOYULUŞU VƏ ONUN TƏNZİMLƏNMƏSİ

**5308.01 – "Ümumi iqtisadiyyat"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Gəncə - 2016**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Univesitetinin "Beynəlxalq ticarət və gömrük işi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor **Arif Şəkərəli oğlu Şəkərəliyev**

**Rəsmi opponenetlər:** İqtisad elmləri doktoru, professor **Hacıağa Baxış oğlu Rüstəmbəyov**

İqtisad üzrə fəlsəfə doktoru, dosent **Oktay Qulam oğlu Məmmədli**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu**

Mudafiə 09 aprel 2016-cı il saat $12^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşagidakı ünvanda olacaqdır.

Ünvan: AZ 2000, Gəncə şəhəri, A. İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 07 mart 2016-ci ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **A.A.Həsənov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir şəraitdə respublikamızda neft amili makroiqtisadi sabitliyin və inkişafın təmin olunmasında mühüm rol oynayır. Lakin, dünyada mövcud olan qlobal-iqtisadi böhran vəziyyəti və beynəlxalq bazarda neftin qiymətinin kəskin surətdə aşağı düşməsi ölkə iqtisadiyyatının inkişafına birbaşa təsir göstərmişdir. Belə bir şəraitdə qeyri-neft sektorunun hərtərəfli inkişafına investisiya tələbatı yaranır ki, ondan səmərəli istifadə olunması ölkə iqtisadiyyatının şaxələndirilməsinə gətirib çıxaracaqdır. Bu məqsədlə ölkə prezidenti İ.Əliyev qeyd etmişdir ki, "bu gün qeyri-neft sektorumuz iqtisadiyyatda hərəkətverici amildir". Ölkə prezidentinin strateji göstərişini bir daha nəzərə alaraq gələcəkdə ölkə iqtisadiyyatının neft amilindən asılılığının azaldılması, iqtisadiyyatın birtərəfli inkişafının aradan qaldırılması və diversitifikasıyası irəli sürülür.

Dövlətin həyata keçirdiyi səmərəli iqtisadi siyasət nəticəsində 2003-2015-cü illər ərzində qeyri-neft sektorunda iqtisadi islahatların uğurla davam etdirilməsi, idxaldan asılılığın azaldılması, rəqabət qabiliyyətli məhsullar istehsal edən sənaye, kənd təsərrüfatı, enerji, nəqliyyat komplekslərinin qurulması, xarici və yerli investorlar üçün cəlbedici investisiya mühitinin yaradılması, özəl müəssisələrin fəaliyyətinə dəstək verilməsi, əlverişli rəqabət mühitinin formalaşması istiqamətində mühüm addımlar atılmışdır.

İqtisadiyyatın diversifikasiyasında, regionların sosial-iqtisadi inkişafında, əhalinin istehlak məhsulları ilə təminatının gücləndirilməsində, infrastruktur sisteminin yenidən qurulmasında Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının (2004-2008; 2009-2013; 2014-2018-ci illər) və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın mühüm rolu olmuşdur. Qeyri neft sektorunun şaxələndirilməsində müasir infrastruktur sisteminin formalaşması, innovasiya xarakterli texnologiyaların tətbiqi, rəqabətqabiliyyətli istehsalın genişləndirilməsi və ölkəmizin ixrac potensialının artırılması özünü daha çox büruzə vermişdir.

Bu məqsədlə ölkə prezidentinin "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" imzaladığı fərmanda göstərilir ki, "Sahibkarlığın inkişafı ilə bağlı görülən işlərə baxmayaraq bu sahədə bir sıra problemlər hələ də tam aradan qaldırılmamışdır. Dövlət başçısının irəli sürdüyü mühüm strateji vəzifələrin xarici və daxili investisiyalar hesabına reallaşması gələcəkdə qeyri-neft sektorunun inkişafında əsaslı irəliləyişlərə səbəb olacaqdır.

Azərbaycanda sahibkarlığın gələcək inkişaf strategiyası bir daha sübut edir ki, respublikamız əvvəlki kimi yenə də investisiya qoyuluşu baxımından dünyanın ən cəlbedici ölkələrindən biridir. Son 10 il ərzində Ümumi Daxili Məhsul istehsalı 7,15 milyard manatdan 59 milyard manata yüksəlmiş və onun 81,9%-i qeyri-dövlət sektorunun payına düşür. 2015-ci ilədə iqtisadiyyatda qeyri-neft sektoru 7% təşkil etmişdir.

Ölkənin qeyri-neft sektoruna investisiya qoyuluşlarının cəlb edilməsinin daha da fəallaşması və ondan səmərəli istifadənin tənzimlənməsi mövzunun aktuallığını bir daha təsdiq edir.

**Problemin öyrənilməsi səviyyəsi.** Müasir dövrdə qeyri-neft sektorunun inkişafına xarici və daxili investisiya qoyuluşu və ondan səmərəli istifadəyə həsr olunmuş fundamental tədqiqatlarda Azərbaycanın tanınmış iqtisadçı – alimlərinin töhfəsi böyükdür. Tədqiq olunan problemin nəzəri və praktiki məsələləri Z.Ə.Səmədzadə, A.A.Nadirov, Ə.C.Muradov, Ə.P.Babayev, B.T.Novruzov, Ə.İ.Bayramov, A.Ş.Şəkərəliyev, E.İbrahimov, Ə.T.Əlirzayev, İ.H.Əliyev, H.M.İmanov, X.H.Kazımlı, B.Ataşov, D.A.Bağırov, V.H.Abbasov, M.X.Həsənli, A.M.Məhərrəmov, C.B.Namazova, M.A.Əhmədov, R.R.Quliyev, M.M.Sadıqov, Q.N.Manafov, E.M.Hacızadə, R.T.Həsənov, R.B.Əliyev, N.A.Novruzov, E.M.Sadıqov, Z.F. Məmmədov və başqalarının əsərlərində geniş tədqiq edilmişdir. Xarici ölkə alimlərindən C.M.Keynsin, P.Massl, A.Mandel, N.V.İqoşin, C.Saks, C.Frenkel, K. Broker, P.Kruqman, Y.T.Şarp, C.A.Qordon, D.B.Beyli, T.S.Tumusov və s. əsərlərində, həmçinin Beynəlxalq Valyuta Fondu və Dünya Bankının ekspertləri tərəfindən geniş tədqiq olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi yaxın perspektivdə Azərbaycanda qeyri-neft sektoruna investisiyaların cəlb edilməsinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi və onların reallaşmasına dair konkret təklif və tövsiyələrin irəli sürülməsindən ibarətdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

- qeyri-neft sektorunda investisiyalardan istifadənin hüquqi-iqtisadi bazasının müəyyən olunması;
- qeyri-neft sektorunun inkişafının milli iqtisadiyyatın modernləşdirilməsindəki rolunu müəyyən etmək;
- müasir dövr üçün qeyri-neft sektorunun inkişaf dinamikasının təhlili və qiymətləndirilməsi;
- qeyri-neft sektorunun formalaşması xüsusiyyətlərinin aşkar olunması;
- müasir şəraitdə qeyri-neft sektorunda İnvestisiya mühitinin real vəziyyəti və ona təsir edən amillərin rolunun müəyyən olunması;
- qeyri-neft sektorunun inkişafına investisiya tələbatının öyrənilməsi və onun maliyyələşmə mənbələrinin araşdırılması;
- qeyri-neft sektorunun formalaşması və inkişafı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi;
-Azərbaycan iqtisadiyyatına daxili və xarici investisiyaların cəlb edilməsinin perspektiv imkanlarının aşkar edilməsi;
- qeyri-neft sektorunda investisiyadan səmərəli istifadə meyarlarının irəli sürülməsi;
- qeyri-neft sektorunda investisiya resurslarından səmərəli istifadənin tənzimlənməsi mexanizmlərinin müəyyən olunması;
- qeyri-neft sektorunun təkmilləşdirilməsində investisiya fəallığının artırılması imkanlarının aşkar olunması.

**Tədqiqatın predmeti.** Azərbaycanın qeyri-neft sektorunun inkişafına investisiya qoyuluşunun səmərəliliyinin artırılması və onun tənzimlənməsi istiqamələrinin müəyyən edilməsidir.

**Tədqiqatın obyekti** kimi qeyri-neft sektoruna investisiya qoyuluşunu həyata keçirən qurumların və dövlət strukturlarının fəaliyyəti əsas götürülmüşdür.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın nəzəri metodoloji əsaslarını ölkə prezidentinin fərmanları, Azərbaycan Respublikasının mövcud qanunları, Nazirlər Kabinetinin qərar və sərəncamları, iqtisad elminin görkəmli nümayəndələrinin baxışları, həmçinin dünyanın aparıcı elmi-tədqiqat mərkəzlərinin qeyri-neft sektorunun inkişafı və investisiyaların cəlb edilməsi problemləri üzrə apardıqları elmi araşdırmaların nəticələri təşkil edir.

Dissertasiya işinin yazılmasında sistemili və kompleks yanaşma, müqayisəli təhlil, qruplaşdırma, analitik və statistik təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işində AR DSK-nin statistik məlumatlarından, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, İqtisadi inkişaf nazirliyinin, Vergilər Nazirliyinin, Dövlət Cömrük Komitəsinin, Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Turizm Nazirliyinin, Azərbaycan Respublikası Mərkəzi Bankının materiallarından istifadə edilmiş, Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun, Beynəlxalq Maliyyə Korporasiyasının və digər beynəlxalq qurumların material, hesabat və sənədlərinə, həmçinin internet şəbəkəsində müvafiq iqtisadi inkişaf göstəriciləri üzrə informasiya bazasına istinad edilmişdir.

**Tədqiqat işinin elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- qeyri-neft sektorunun inkişafının milli iqtisadiyyatın modernləşdirilməsinə təsirinin kompleks təhlili aparılmış və perspektiv imkanları müəyyən edilmişdir;
- qeyri-neft sektorunun inkişafına investisiya tələbatı müəyyən olunmuş və ona yönəldiləcək investisiya resurslarından istifadə mənbələri aşkar olunmuşdur;
- Azərbaycanda indiki dövr üçün qeyri-neft sektorunun inkişaf dinamikası təhlil edilmiş və qiymətləndirilmişdir;
- müasir şəraitdə qeyri-neft sektorunda investisiya mühitinin real vəziyyəti təhlil edilmiş və onun stimullaşdırılması mexanizmləri müəyyən olunmuşdur;
- qeyri-neft sektorunda investisiyalardan səmərəli istifadə olunması meyarları göstərilmişdir;
- qeyri-neft sektoruna investisiya qoyuluşunun həyata keçirilməsinin dünya təcrübəsi öyrənilmiş və onun tətbiqi imkanları müəyyən edilmişdir;
- qeyri-neft sektorunun inkişaf potensialının tam reallaşması nəticəsində ixrac-yönümlü rəqabətqabiliyyətli məhsulların artırılması haqqında bir sıra səmərəli təkliflər irəli sürülmüşdür;
- neft gəlirlərinin ölkə iqtisadiyyatının strukturunun yenidən qurulmasına təsir imkanları araşdırılmışdır;
- qeyri-neft sektoruna daxili və xarici investisiya qoyuluşlarının təkmilləşdirilməsi istiqamətində konkret təkliflər verilmişdir;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Əldə edilmiş və əsaslandırılmış təkliflər və tövsiyyələrdən qeyri-neft sektoruna yönəldilmiş investisiyaların səmərəliliyinin qiymətləndirilməsində və investisiya resurslarının maliyyələşdirilməsi-

nin perspektiv imkanlarının aşkar olunmasında istifadə oluna bilər. Bundan başqa tədqiqatın əsas müddəaları, əldə edilmiş nəticələr, habelə irəli sürülmüş təklif və tövsiyyələr mili iqtisadiyyatın modernləşdirilməsində və onun strukturunun təkmilləşdirilməsində öz rolunu göstərə bilər.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi.** Tədqiqat işinin əsas müddəaları respublika və beynəlxalq elmi konfranslarda məruzə edilmiş və bəyənilmişdir. Mövzuya aid 10 məqalə və tezis dərc edilmişdir. Dissertasiya işinin nəticələri Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən istifadə üçün qəbul edilmişdir (1353/05-ə-1625, 24.12.2015-ci il).

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissetrasiya işi giriş, üç fəsil 8 paraqraf və nəticədən ibarət olmaqla 148 səhifə həcmindədir. İşdə 19 cədvəl verilmiş, 133 adda ədəbiyyat siyahısından istifadə olunmuşdur.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti, nəzəri metodoloji əsasları, informasiya bazası, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti şərh olunur. Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi barədə məlumat verilir.

Dissertasiya işinin birinci fəsli **"Qeyri-neft sektorunun inkişafının nəzəri-metodoloji əsasları"** adlanır. Bu fəsil qeyri-neft sektoruna innvestisiya qoyuluşlarının hüquqi-iqtisadi əsasları və onun reallaşma istiqamətlərinin müəyyən olunmasına, milli iqtisadiyyatın modernləşdirilməsində qeyri-neft sektorunun rolu və onun tənzimlənməsi mexanizmlərinin araşdırılmasına və Azərbaycanda qeyri-neft sektorunun inkişaf dinamikasının geniş formada təhlilinə həsr olunmuşdur.

İqtisadi ədəbiyyatda investisiya böhranı, və ya investisiya prosesinin fəallaşması haqqında fikirlər irəli sürülür. Onlar arasında fərq investisiya qoyuluşlarının səmərəliliyinin aşağı düşməsi və ya investisiya xərclərinin artması səbəbləri ilə izah olunur. Eyni zamanda fərq əldə olunan gəlir və risketmə xüsusiyyətlərinə görə müəyyən olunur. Göstərilən yanaşmalar bir daha müəyyən edir ki, kapital qoyuluşları istehsal fəaliyyətinin həyata keçirilməsi, həm də gəlir əldə edilməsinə yönəlmiş prosesdir. Amerika iqtisadçılarının bu məsələyə dair mövqeyi isə ondan ibarətdir ki, «İnvestisiya» və «kapital qoyuluşları» arasında bərabərlik işarəsi qoyulmalıdır. Bu zaman ikinci kateqoriya əsasən daşınmaz əmlaka aid edilir.

Milli qanunvericilikdə isə "İnvestisiyalar" bir qədər başqa cür izah olunur. Azərbaycan Respublikasının "İnvestisiya fəaliyyəti haqqında" Qanununda təsbit edilmişdir ki, investisiya – gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növlərinə (obyektlərinə) qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir.

Azərbaycan iqtisadiyyatında xarici investisiya qoyuluşunun rolunu və onun dünya iqtisadiyyatına inteqrasiyasını təhlil edərkən əsas amillərdən biri kimi xarici investisiyaların (texnologiyanın) ölkə iqtisadiyyatına cəlb olunması əsas götürülməlidir. Bir çox dünya ölkələrinin, o cümlədən Yaponiyanın və yeni sənaye ölkələrinin qabaqcıl təcrübəsi göstərir ki, həmin ölkələrdə xarici kapitalın tətbiq

olunması sənayeləşmə prosesinin inkişafına və elmtutumlu sahələrin genişləndirilməsinə imkan yaratdı. Eyni zamanda müasir dövrdə texnologiyaların beynəlxalq transferində lisenziyalara və yüksək texnoloji vasitələrə daha çox üstünlük verilir. Bunlar özlüyündə maddi formada xarici investisiyaları əks etdirir. Məsələn, Çində texnologiyaların idxalının 55% xarici investsiyaların payına düşür.

Göstərilən cəhətlər bir daha sübut edir ki, hazırkı şəraitdə Azərbaycanın maraqlarını xarici investisiyaların cəlb edilməsinə yönəltmək olduqca məqsədəuyğundur. Çünki xarici investisyaların, xüsusilə birbaşa xarici investisiyaların respublikaya cəlb edilməsi iqtisadiyyatın hərtərəfli inkişafına təkan verir.

Respublikada qeyri-neft sektorunun inkişafı ilə həyata keçirilən ciddi islahatlar investisiya bazarının daha da genişlənməsinə əlverişli mühit yaradır. Azərbaycan dünya ölkələrinin investisiya bazarında fəal iştirak edir və onların ölkə iqtisadiyyatına cəlb olunmasına səy göstərir. Eyni zamanda Respublikaya xarici investisiyaların cəlb olunması Azərbaycan Respublikasında investisiya qoyuluşlarını tənzimləyən qanunların, normativ aktların fəaliyyətinə əsaslanır.

Azərbaycan Respublikası xarici investisiyaların cəlb edilməsi ilə bağlı bir sıra beynəlxalq təşkilatlar ilə əməkdaşlıq edir. Ümumittifaq Ticarət Təşkilatı(ÜTT), Dünya Gömrük Təşkilatı (DGT), MDB, GUAM və s. təşkilatlarla əlaqələr daha da genişlənir.

Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb olunması ölkənin milli-iqtisadi maraqlarının reallaşmasına bir başa təsir göstərir. Bu baxımdan son dövrdə respublikada həyata keçirilən struktur dəyişikliklərinin əsas məqsədi xarici və daxili investorlar üçün əlverişli investisiya mühiti yaratmaqdan ibarətdir.

Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı ildə xarici və daxili investisiya qoyuluşları əsasında qeyri-neft sektorunun inkişafı və bütün regionlarda sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsini tənzimləyən bir neçə fərmanlar imzalaşmışdır. Ölkə başçısının irəli sürdüyü strateji göstərişlər əsasında iqtisadiyyatın real sektoruna investisiya qoyuluşlarının həcminin artırılması və fəaliyyətdə olan bankların maliyyə resurslarının qeyri-neft sektoruna yönəldilməsi nəzərdə tutulur.

Azərbaycanda investisiya fəallığının stimullaşdırılmasının ən vacib istiqamətlərindən biri də İnvestisiya-vergi kreditlərinin tətbiqi mexanizmlərinin qanunvericilik bazasının müəyyənləşdirilməsidir. Respublikamızda həyata keçirilən uğurlu vergi siyasətinin əsas istiqamətlərindən biri vergi dərəcələrini aşağı salmaqla əlverişli İnvestisiya mühitinin yaradılmasıdır. Artıq 2014-cü ildən ƏDV-18%, mənfəət vergisi 22% və fiziki şəxslərdən gəlir vergisi 14,35% təşkil etmişdir.

Birinci fəslin ikinci paraqrafı "**Milli iqtisadiyyatın modernləşdirilməsində qeyri-neft sektorunun rolu və onun tənzimlənməsi mexanizmi**" adlanır. Tədqiqat prosesində milli iqtisadiyyatın modernləşdirilməsində qeyri-neft sektorunun rolu və onun dövlət tərəfindən tənzimlənməsi məsələlərinə daha çox diqqət yetirilir. Belə ki, Azərbaycan özünün müstəqil milli iqtisadiyyatını formalaşdırdıqdan sonra sosial-iqtisadi inkişafında mühüm irəliləyişlər baş vermişdir.

Dövlətin həyata keçirdiyi səmərəli makroiqtisadi siyasət istiqamətlərinin reallaşması nəticəsində milli iqtisadiyyatın modernləşdirilməsi sistemində mühüm addımlar atılmışdır. Ölkəmizdə neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycanda iqtisadi, sosial, xidmət, ticarət, tikinti və digər sferalarda xeyli dərəcədə irəliləyiş baş verməyə başladı. Hər bir ölkənin inkişaf səviyyəsi, ilk növbədə milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişaf səviyyələri ilə xarakterizə olunur. Müstəqil milli iqtisadiyyatın bütöv bir sistem kimi formalaşmasında və modernləşdirilməsində neft amilinin mühüm rolu olmuşdur. Neft gəlirləri hesabına milli iqtisadiyyatın inkişafında aşağıdakı irəliləyişlər baş vermişdir:

- Ölkənin iqtisadiyyatına xarici şirkətlər tərəfindən birbaşa xarici investisiyalar cəlb olunmuşdur;
- ÜDM-də Dövlət büdcəsinin gəlirlərinin xüsusi çəkisi artmışdır;
- İqtisadiyyatın strukturunda əsaslı dəyişikliklər baş vermişdir;
- Makroiqtisadi sabitlik təmin olunmuş və milli pul vahidinin alıcılıq qabiliyyəti artmışdır;
- İstehsal, xidmət, ticarət sahələrinin inkişafına və genişləndirilməsinə əlverişli investisiya mühiti yaranmışdır;
- Kiçik və orta sahibkarlıq (biznes) fəaliyyəti iqtisadiyyatın müxtəlif sahələrini əhatə etmişdir;
- Dövlət və özəl sektorlarda yeni iş yerlərinin açılması imkanları yaranmış. ölkədə yoxsulluq səviyyəsi minimum həddə çatmışdır;
- Sosial sferanın inkişafında, əhalinin pul gəlirlərinin artmasında əsaslı dönüş yaranmışdır;
- Regionların sosial-iqtisadi inkişafında struktur dəyişiklikləri baş vermişdir.

Neftdən əldə olunan gəlirlər hesabına Azərbaycanın milli iqtisadiyyatının modernləşdirilməsində baş verən müsbət amillərlə yanaşı, onun ölkə iqtisadiyyatına ciddi təsir edən mühüm sindromları da nəzərə çarpır.

Azərbaycan indiyə kimi neft amilindən bir məqsəd kimi deyil, bir vasitə kimi istifadə edərək öz iqtisadiyyatında rekord göstəricilərə nail olmuş və ölkənin bütün fəaliyyət sferalarında əsaslı irəliləyişlər baş vermişdir. Bunun nəticəsi olaraq, Azərbaycanın beynəlxalq səviyyədə əldə etdiyi bütün nailiyyətlər onun reytinqini qaldırmışdır.

Lakin bu gün dünya ölkələrinin iqtisadi böhranı və neft gəlirlərinin aşağı düşməsi Azəraycanda ümumi gəlirlərin yalnız qeyri-neft sektoru hesabına formalaşmasını tələb edir.

Ölkədə qeyri-neft sektorunun inkişafı yeni iş yerlərinin yaradılmasına, milli iqtisadiyyatın dünya neft bazarının konyunkturundan asılılığının aradan qaldırılmasına, makroiqtisadi sabitliyin davamlılığının təmin olunmasına, ölkədə yoxsulluq səviyyəsinin əsaslı şəkildə aradan qaldırılmasına, regionların sosial-iqtisadi inkişafına, xarici ticarətdə idxalla ixracın nisbətinin dəyişməsinə və rəqabət qabiliyyətli məhsulların istehslına  şərait yaradacaqdır.

Qeyri-neft sektorunun inkişaf strategiyasının hazırlanması və onun səmərəli diversifikasiyasının müəyyən olunması gələcək dövr üçün bir sıra  prioritet sahə-

lərin inkişafına səbəb olacaqdır. Milli iqtisadiyyatın modernləşdirilməsində qeyri-neft sektoru sahələri sırasında aparıcı və daha tez gəlir gətirən sənaye sahələrinin inkişafına daha çox dəstək verilməlidir. Belə ki, hər bir ölkənin iqtisadi inkişaf səviyyəsini xarakterizə edən bir sıra makroiqtisadi göstəricilərdən biri də sənaye istehsalının həmçinin artırılması, Ümumi Daxili məhsulda onun xüsusi çəkisinin çoxalması, həmin sahənin məhsullarının keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsidir. Dünya ölkələrinin təcrübəsi sübut edir ki, sənaye sektorunu inkişaf etdirmədən ölkənin və ya regionun hərtərəfli surətdə tərəqqisinə nail olmaq qeyri-mümkündür. Bunları nəzərə alaraq sənayenin bütün sahələrinə investisiya qoyuluşlarının artırılması ölkənin sənaye yönümlü təbii-iqtisadi resurs potensialından səmərəli istifadə olunması strateji məsələlərdən biridir.

Lakin indiyə qədər əldə olunmuş nailiyyətlər yalnız neft sənayesi potensialından istifadəyə əsaslanmışdır. Digər sənaye sahələrinə o dərəcədə diqqət yetirilməmişdir. Bir neçə illər ərzində mövcud olan sosial-iqtisadi çətinlikləri aradan qaldırmaq məqsədilə dövlət və bazar tənzimlənməsi mexanizmlərinin üstünlüklərindən istifadə olunmuşdur. Ölkə iqtisadiyyatının şaxələndirilmiş inkişafını təmin etmək məqsədilə dövlət tərəfindən çoxsaylı məqsədli proqramlar, layihələr, konsepsiyalar və proqnozlar irəli sorulmuşdur. Həmin proqram xarakter layihələrdən biri "Azərbaycan 2020: gələcəyə baxış konsepsiyasıdır". Bu konsepsiyanın başlıca məqsədi Azərbaycanın milli iqtisadiyyatını qlobal miqyasında innovasiya və modernləşdirmə istiqamətində keyfiyyətcə yeni müstəviyə qaldırmaqdır. Həmçinin "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası ölkə iqtisadiyyatını yüksək rəqabət qabiliyyətinə malik olan iqtisadiyyata çevirmək, səmərəli sənaye siyasətini həyata keçirmək, qeyri-neft sektorunun hərtərəfli inkişafını təmin etmək və regionların tarazlı sosial-iqtisadi inkişafına nail olmaq və s. istiqamətləri irəli sürür. Azərbaycanda sənayenin bütün sahələrinin hərtərəfli inkişafı məqsədilə 2014-cü il "sənaye ili" elan olunmuşdur. Bu məqsədlə Azərbaycan Respublikası prezidentinin 10 yanvar 2014-cü il tarixli 2/2 sərəncamına əsasən 2015-2020-ci illər üçün Dövlət Proqramı işlənib hazırlanmışdır. Dövlət Proqramının tələblərinə uyğun olaraq, ölkənin milli iqtisadi inkişaf modelində güclü sənaye istehsalının formalaşması mühüm yer tutur. Sənaye iqtisadiyyatın öncül aparıcısı sahəsi kimi daha çox kapital tutumludur və çoxsahəlidir. Eyni zamanda sənayenin xammalının əsas hissəsi öz daxili potensalımız və xaricdən əldə olunmuş ehtiyatlar əsasında təmin edilir.

Ölkədə sənaye siyasətinin həyata keçirilməsi nəticəsində sənayenin diverfikasiyası genişləndirilmiş, yeni istehsal sahələri istifadəyə verilmişdir. Müasir sənaye siyasətində qarşıda duran mühüm vasitələrdən biri innovasiya texnologiyalarına əsaslanan yüksək rəqabət qabiliyyətli müəssisələrin yaradılması və işə salınmışdır. Son illərdə ölkədə bir sıra sənaye müəssisələrinə xarici və daxili investisiyalar yönəldilmiş və onların fəaliyyəti daha da genişləndirmişdir.

Onlara: Bakının cənubunda Gəmiqayırma Zavodunun fəaliyyətə başlaması, Qaradağda sement zavodunun istehsal gücünün artırılmasını, Qazax rayonunda və Naxçıvanda yeni sement zavodunun tikilib istifadəyə verilməsini Azərbaycanda

Polad istehsalı kompleksinin yaradılmasını və digər yeni sənaye müəssisələrinin işə salınmasını aid etmək olar. Bunlarla yanaşı Azərbaycanda milli iqtisadi inkişaf modelinin prioritet istiqaməti kimi qeyri-neft sektorunun inkişafında maşınqayırma, cihazqayırma, neft kimya müəssisələrinin yaradılması məsələlərinə daha çox diqqət yetirilməsi nəzərdə tutulur.

O cümlədən, Naxçıvanda avtomobil zavodunun, Gəncədə traktor, Mingəçevirdə elektrik, Sumqayıtda günəş panelləri, Qaradağda metal konstruksiyalar və digər müəssisələrin tam gücü ilə fəaliyyət göstərməsi mühüm nailiyyətlərdir.

Azərbaycanın sənaye siyasətində müdafiə sənayesi də mühüm yer tutur. Hazırda müdafiə sənayesinin inkişafında mühüm irəliləyişlər baş vermişdir. Belə ki, az müddət ərzində bu sahədə 50-yə yaxın yeni istehsal sahəsi yaradılmış və 900-dən çox çeşiddə müdafiə təyinatlı məmulatlar istehsal olunmuşdur.

Azərbaycanda sənaye siyasəti ilə bağlı göstərilən bütün problemlərin vaxtında həll olunması dövlətin makroiqtisadi siyasətinin ana xəttini təşkil edir. Buna görə də gələcək dövr üçün sənaye siyasətinin strateji məqsədlərinin reallaşmasında aşağıdakı mühüm istiqamətlərin nəzərə alınması məqsədəuyğun olardı:

- Cənubi Qafqaz regionunda Azərbaycan daha güclü təbii-iqtisadi potensiala malik olduğunu nəzərə alaraq onun sənayeləşmə imkanlarının daha da gücləndirilməsinə böyük ehtiyac duyulur;
- Sənaye məhsullarının rəqabət qabiliyyəti daha da gücləndirilməli və onların ixrac potensialı artırılmalıdır;
- Ölkənin sənaye məhsullarına olan daxili tələbatını ödəyə bilən müasir tipli müəssisələri yaradılmalı və onların ayrı-ayrı regionlarda filialları işə salınmalıdır;
- Dövlətin regional, struktur və investisiya siyasətləri ilə sənaye siyasəti qarşılıqlı surətdə əlaqələndirilməli və dövlət tərəfindən tənzimlənməlidir;
- Bütün sənaye sahələrinin səmərəli infrastruktur sistemi formalaşdırılmalı və idarə olunmalıdır;
- Ölkə sənayesinin milli xüsusiyyətləri nəzərə alınmaqla dünya ölkələrinin təcrübəsindən və üstünlüklərindən istifadə olunmalıdır;
- Qeyri-neft sənayesinin ixrac potensialının artırılması dövlət tərəfindən həvəsləndirilməlidir;
- Dövlətin regional sənaye siyasəti ilə müxtəlif sahələrin inkişafı arasında qarşılıqlı əlaqələr yaradılmalıdır;
- Sənaye siyasətində innovasiya yönümlü texnika və texnologiyalardan istifadə olunmasına üstünlük verilməlidir.

Göstərilən təklif və tövsiyyələrin vaxtında nəzərə alınması Azərbaycanda Müasir Sənaye Kompleksinin formalaşmasına və inkişafına təkan verəcəkdir.

Qeyd edilməlidir ki, indiyə kimi ölkənin dövlət büdcəsinin gəlirlərinin formalaşmasında qeyri-neft sektorunun xüsusi çəkisi olduqca zəif olmuşdur. Bu da qeyri-neft sektorunun ödədiyi vergilərin artım sürətinin neft sektorunun ödədiyi vergilərin artım sürətindən geridə qalması ilə bağlı olmuşdur. Beynəlxalq təcrübə göstərir ki, neft sektorunun ödədiyi vergilərin həcmi dünya bazarının konyunkturundan daha çox asılıdır.

Qeyri-neft sektorunun yeni strukturunun yaranması iqtisadiyyatda tələb və təklif mexanizmlərinin nisbətinin dəyişməsinə səbəb olur. Bu baxımdan qeyri-neft sektorunun inkişafı və yeni struktur dəyişiklikləri təklif amillərinə aşağıdakı istiqamətlərdə öz təsirini göstərir:

- Yeni özəlləşdirilən müəssisələrin yenidən qurulması və bazar şəraitinə uyğunlaşdırılması;
- Dövlətin sahibkarlıq və biznes fəaliyyətində bürokratik maneələrin aradan qaldırılması;
- Vergi dərəcələrinin aşağı salınması və investisiya mühitinin yaxşılaşdırılması və s.

Bunlarla yanaşı qeyri-neft sektorunun inkişafının tələb amillərinə təsiri aşağıdakı istiqamətlərdə baş verir:

- Ölkə daxili tələbin, xüsusilə istehlak tələbinin strukturunun təkmilləşdirilməsi və genişləndirilməsi;
- Neft sektoruna səlb olunan xarici investisiyaların əsasən məhsul və xidmətlərin istehsalına yönəldilməsi;
- Qeyri-neft sektorunun istehsalına olan tələb amillərinin genişlənməsi.

Qeyri-neft sektorunun strukturunun formalaşmasına təsir göstərən amillərdən biri də daxili və xarici bazarlarda mövcud olan rəqabətdir. Daxili və xarici bazarlarda rəqabətə davamlı məhsulların istehsalına yönəldilən investisiyaların həcmi daha çox artırılmalıdır.

Hazırkı şəraitdə Azərbaycanın geosiyasi mövqeyi və coğrafi yerləşməsi, təbii ehtiyatların zənginliyi, böyük elmi-texniki kadr potensialı nəzərə alınmalı və ilk növbədə respublikanın qeyri-neft sektorunun inkişafına nail olunmasında onların rolu artırılmalıdır. Azərbaycanda qeyri-neft sektorunun inkişafında son məhsul istehsal edən sahələrin üstünlüklərindən istifadə olunmasına daha çox diqqət yetirilməlidir. Bunu nəzərə alaraq gələcək dövrdə ölkədə qeyri-neft sektoru məhsullarının ixrac potensialının artırılması strateji məqsədə çevrilməlidir

Azərbaycan-2020: "Gələcəyə baxış" inkişaf konsepsiyasına uyğun olaraq sənayenin inkişafı prioritetlərində neft-qaz hasilatı, nəqli və emalı sistemlərinin tikilməsi, yenidən qurulması, modernləşdirilməsi zəruri istiqamətlər kimi irəli sürülür. Eləcə də iqtisadiyyatın klasterlər əsasında inkişafı çərçivəsində neft, qaz emalı və neft kimya zavodlarından ibarət kompleksin inşası nəzərdə tutulmuşdur.

Dissertasiya işinin birinci fəslinin 3-cü paraqrafı Azərbaycanda qeyri-neft sektorunun inkişaf dinamikasının təhlilinə həsr edilmişdir.

Əsas prioritetlərdən biri kimi sənaye müəssisələrində innovasiya yönümlü texnologiyaların tətbiqinin stimullaşdırılması, ixtisaslaşmış sənaye şəhərciklərinin yaradılmasını göstərmək olar. İqtisadi rayonlar üzrə sənaye şəhərciyi infrastrukturunun formalaşdırılması, qeyri-neft emal sənayesinin inkişaf etdirilməsi ilə bağlı dövlət investisiya siyasətinin fəallığının artırılmasına xüsusi diqqət yetirilməlidir. Sənayenin inkişaf strategiyasında xüsusi iqtisadi zonalarının yaradılması, o cümlədən, Sumqayıtda neft-kimya məhsullarının emalı, Balaxanıda məişət tul-

lantılarının emalı və Gəncədə metal (alüminium) məmulatlarının istehsalı üzrə sənaye şəhərciklərinin qurulması qeyri-neft sektorunun inkişafında mühüm rola malikdir. Hazırda qeyri-neft sektorunun əsas sahələrindən olan maşınqayırma sənaye məhsulunun rəqabət qabiliyyətinin artırılması mühüm əhəmiyyət kəsb edir. Maşınqayırma sənayesində məhsulun rəqabət qabiliyyətinin əsasında onun keyfiyyəti və mükəmməlliyi durur. Məhsulun rəqabət qabiliyyəti aşağıdakı parametrlərinə görə müəyyən olunur:

- məhsulun texniki səviyyəsini müəyyən edən göstəricilərə görə;

-satılan məhsulun rəqabət qabiliyyətinin kommersiya göstəricilərinə görə;

-məhsulların satışının təşkili və istifadə olunması səviyyəsinə görə;

-məhsulların rəqabət qabiliyyəti çox saylı texniki-iqtisadi göstəricilərlə xarakterizə olunur.

2005-2014-cü illərdə qeyri-neft sektorunun bir sıra sahələrinin ÜDM-də xüsusi çəkisinin dinamik olaraq dəyişməsini aşağıdakı cədvəldən görmək olar.

Cədvəlin təhlili göstərir ki, ÜDM-də 2005-ci ilə nisbətən 2014-cü ildə sənayenin xüsusi çəkisi 4,1 faiz kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq 2 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri 2 faiz, sosial və sair xidmətlər 23, 5 faiz artmışdır.

Cədvəl 1.1

Azərbaycanda Ümumi Daxili Məhsulun strukturu
(müvafiq illərin cari qiymətləri ilə, faizlə)

| Göstəricilər | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul-cəmi cümlədən: | 77,8 | 81,0 | 84,0 | 84,5 | 81,2 | 81,7 | 82,5 | 81,5 | 82,5 | 81,9 |
| Sənaye | 84,5 | 87,5 | 90,3 | 89,9 | 85,9 | 87,4 | 88,1 | 87,3 | 87,4 | 86,1 |
| Tikinti | 90,4 | 81,8 | 77,3 | 87,0 | 76,1 | 72,0 | 75,3 | 76,0 | 84,5 | 84,3 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 97,8 | 96,9 | 99,4 | 99,0 | 99,2 | 99,7 | 99,3 | 99,4 | 99,4 | 99,8 |
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 97,8 | 99,3 | 99,0 | 99,1 | 99,0 | 99,2 | 99,7 | 99,7 | 99,8 | 99,8 |
| Nəqııyyat və anbar təsərrüfat | 37,5 | 46,1 | 76,8 | 82,0 | 75,4 | 75,3 | 78,1 | 77,7 | 77,1 | 78,5 |
| İnformasiya və rabitə | 80,2 | 79,6 | 80,3 | 72,9 | 80,4 | 78,6 | 76,3 | 76,6 | 76,8 | 80,0 |
| Sosial və sair xidmətlər | 31,7 | 43,8 | 40,3 | 31,7 | 48,8 | 47,0 | 49,4 | 49,1 | 51,5 | 55,2 |

Cədvəl ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır.

Qeyri-neft sektorunun ən sürətli inkişaf edən sahələrindən biri İnformasiya-kommunikasiya texnologiyaları sahəsidir.

İKT sahəsində tətbiq olunan yeniliklərin son məqsədi respublikamızı regionda rabitə və informasiya texnologiyaları sahəsində tranzit və mərkəzi ölkəyə çevirməkdir. Azərbaycanın yaxın illərdə informasiya ixrac edən ölkələrdən birinə çevrilməsi aparılan islahatların başlıca qayəsini təşkil edir.

Azərbaycan qeyri-neft sektorunun inkişafında Sumqayıt səhərinin mühüm rolu vardır. Bu gün Sumqayıt Azərbaycanın müasir sənaye mərkəzidir. Şəhərin iqtisadi strukturuna kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri daxildir. Şəhərdə mövcud olan ağır sənaye müəssisələrinin əksəriyyəti müasir texnologiyaya əsasında yenidən qurulmuşdur.

Xüsusilə, Sumqayıt texnologiyalar parkının və kimya, sənaye parkının fəaliyyət göstərməsi ölkəmizə böyük uğurlar gətirir.

Qeyri-neft sektorunun inkişafında aqrar bölmənin rolu olduqca böyükdür. Odur ki, milli iqtisadiyyatın bu apancı sahəsinin bazalı və dinamik inkişafı ölkə iqtisadiyyatının gəlirlərinin artmasına birbaşa təsir göstərir.

Bazar iqdisadiyyatı şəraitində aqrar sahənin, onun tərkib hissəsi olan kənd təsərrüfatının müasir tələblər səviyyəsində qurulması iqtisadi inkişafın başlıca məqsədidir. Kənd təsərrüfatında yeni resursqoruyucu texnologiyaların tətbiqi, intensiv amillərdən istifadə olunması istehsalın səmərəliliyinin artmasına, məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsinə səbəb olur. Hazırda kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılması onun ixrac potensialının genişləndirilməsi və xarici valyutaların ölkəyə gətirilməsi dövlətin strateji məqsədidir.

2005-2014-cü illərdə kənd təsərrüfatının ümumi məhsulunun dinamikasına nəzər saldıqda məlum olur ki, bütün təsərrüfat kateqoriyaları üzrə bu göstərici 2,8 dəfə, kənd təsərrüfatı və sair təşkilatlarda 5,9 dəfə, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında 2,7 dəfə artmışdır. Bu cür artım müvafiq olaraq bitkiçilik və heyvandarlıqda da özünü büruzə vermişdir.

Respublikamızda qeyri-neft sektorunun inkişfında emal və yeyinti sənayesinin inkişaf etdirilməsi müstəsna əhəmiyyət kəsb edir. Bu məqsədlə emal və yeyinti sənayesinin inkişaf etdirilməsində aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Quba, Xaçmaz və digər iri şəhərlərdə yüksək istehsal gücünə malik ət, süd, meyvə şirəsi kombinatlarının yaradılması;
- rayon və kəndlər kiçik və orta ölçülü emal müəssisələrinin və mobil sexlərin təşkil edilməsi;
- tara və bükmə materiallarının istehsalı üzrə ixtisaslaşan müəssisələrin yaradılması..

Ölkədə qeyri-neft sektorunun əsas prioritet sahələrindən biri kimi turizmin sürətlə inkişaf etməsi mühüm rola malikdir.

Ölkədə aparılan uğurlu islahatlar nəqliyyat və qeyri-nəqliyyat sektorunda yük daşımalarının həcminin sürətlə artmasına təkan vermişdir. Qeyd etmək lazımdır ki, qeyri-neft sektorunun inkişafında TRASEKA proqramının və TANAP

layihəsinin həyata keçirilməsi xarici investisiyaların rolunu daha da artırır, ölkənin beynəlxalq nəqliyyat dəhlizinə qoşulmasında və regional inteqrasiya proseslərinin daha da güclənməsində öz prioritet üstünlüyünü göstərir.

Ölkənin sosial-iqtisadi inkişaf proqnozlarına görə 2016-cı ildə ÜDM-i 63,1 milyard manat (artım 4,8 faiz) səviyyəsində proqnozlaşdırılır, 2017-ci ildə isə ölkənin ÜDM-i altı faiz artımla 67,3 milyard manata çatacaq. 2014-2017-ci illərdə ölkə ÜDM-də neft sektorunun payı müvafiq olaraq 38,5 faizdən 27,6 faizə düşəcək. 2016-cı ildə 29 faiz təşkil edəcək. ÜDM-də iqtisadiyyatın qeyri-neft sektorunun xüsusi çəkisi 2014-cü ildəki 61,5 faizdən 2017-ci ildə 72,4 faiz təşkil edəcək. Gözlənildiyinə görə ÜDM-də qeyri-neft sektorunun payı 2016-cı ildə isə 71 faiz təşkil edəcək.

Azərbaycan artıq özünün post neft dövrünü yaşayır. Bir neçə ildir ki, ölkə iqtisadiyyatının sürətli inkişafı təmin edilmiş və bütün fəaliyyət sferasında əsaslı irəliləyişlər baş vermişdir.

Belə uğurlu irəliləyişlərin nəzərə çarpması əsasən neft gəlirləri hesabına baş vermişdir. Lakin dünya iqtisadi böhranının nəticələri neft ölkəsi olan Azərbaycan iqtisadiyyatına da ciddi təsir göstərmişdir. Milli valyutanın xarici valyutaya (dollara) nisbətən dəyərdən düşməsi dövlət büdcəsi gəlirlərinin azalmasına, əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsinə birbaşa təsir etmişdir. Ölkə iqtisadiyyatının neft gəlirləri hesabına birtərəfli inkişafı qeyri-neft sektorunun şaxələndirilməsini zəruri etmişdir. Azərbaycanda post neft məkanı dövründə xarici və daxili investisiyaların daha çox qeyri-neft sektorunun gəlirli sahələrinə yönəldilməsi nəzərdə tutulmuşdur.

Dövlətin makroiqtisadi siyasətində Yaxın gələcəkdə Azərbaycanda qeyri-neft sektorunun inkişafı onun milli iqtisadi inkişaf modelinin ana xəttini təşkil edir.

Azərbaycanda istehsalın qeyri-neft sektorunun strukturuna uyğunlaşdırılması dövlətin iqtisadi siyasətinin başlıca məqsədi hesab olunur. Bu baxımdan dövlət ölkə iqtisadiyyatına investisiya qoyuluşlarının stimullaşdırılması mexanizmlərini reallaşdırmaq məqsədilə müxtəlif metodlardan istifadə edir. Onlara aşağıdakıları aid etmək olar.

- dövlət büdcəsinə borcu olan özəlləşdirilmiş dövlət müəssisələrinin borclarının silinməsi və ya onların güzəştli ödənilməsi yolu ilə təsərrüfat subyektlərinin maliyyə cəhətdən sağlamlaşdırılması;
- özəlləşdirmə prosesində dövlət müəssisələrinin hərrac vasitəsilə satılması və ya uzunmüddətli icarəyə verilməsi.

Respublikada investisiya fəallığını yüksəltmək məqsədilə dövlət tərəfindən bir sıra mühüm tədbirlər sistemi həyata keçirilir:

1. İnvestisiya fəaliyyəti üzrə möhkəm hüquqi-normativ baza formalaşdırılmış və bir sıra qanunlar paketi qəbul olunmuş, həmçinin onların reallaşma mexanizmləri işlənib hazırlanmışdır;
2. İnvestisiya fəallığını artırmaq məqsədilə yeni gömrük tarifləri müəyyən edilmişdir.

3. İnvestisiya prosesinin cəlb olunması və idarəedilməsi sistemi yenidən qurulmuşdur;

4. Aqrar sahədə rəqabət qabiliyyətli məhsulları istehsal edən müəssisələrə dövlət tərəfindən çox saylı güzəştlər edilmişdir. Belə ki, həmin müəssisələr torpaq vergisi istisna olmaqla bütün növ vergilərdən azad edilmişlər;

5. Azərbaycanın daha gəlirli sahələrinə investisiyaların cəlb olunması və ondan səmərəli istifadə olunması prosesinin surətləndirilməsi nəzərdə tutulmuşdur;

6. Ölkə iqtisadiyyatının strukturunun yenidən qurulması və onun innovasiya

Mütəxəssislərin hesablamalarına görə gələcəkdə Azərbaycanın iqtisadi inkişafına qoyulan illik xarici investisiya 20-25 mlrd. dollaradək artırıla bilər. Son illərdə ölkə iqtisadiyyatının inkişaf etdirilməsinə, xüsusilə qeyri-neft sektoru sahələrinin inkişafı proseslərinə yönəldilən investisiya resurslarının əksəriyyəti daxili investisiyalardır.

Son 10 il ərzində ölkə ÜDM-ü 3,2 dəfə, adambaşına ÜDM-in həcmi 2,8 dəfə, qeyri-neft sektoru 2,6 dəfə artmış və ölkəmizdə orta illik iqtisadi artım 12,9 % təşkil etmişdir. Valyuta ehtiyatları 31 dəfə, xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, idxal 4,1 dəfə, qeyri-neft ixracı 4,7 dəfə artmışdır. Azərbaycan iqtisadiyyatı "Qlobal Rəqabət Qabiliyyəti İndeksi" hesabatına əsasən, rəqabət qabiliyyətli səviyyəsinə görə 39-cü, MDB-də 1-ci olmuşdur, ölkəmiz ilk dəfə dünyanın "yuxarı orta gəlirli" və "yüksək insan inkişaflı" ölkələr qrupuna daxil edilmişdir. Azərbaycan Qafqaz ölkələri arasında investisiya reytinqinə malik olan yeganə ölkələr sırasına daxildir. 2004-2014-cü illərdə qeyri-neft sektoruna investisiyalar 12,9 dəfə artmış və ölkə regionlarına yönəldilən investisiyaların həcmi 51 mlrd. manata yaxın olmuşdur.

İkinci fəsilin "Qeyri-neft sektoruna yönəldilmiş dövlət investisiyaları" adlanan ikinci paraqrafında Azərbaycan iqtisadiyyatına cəlb edilən xarici investisiyalar ilə müqayisədə daxili investisiyaların rolu və imkanları təhlil edilmişdir.

Azərbaycan Respublikasında bir neçə illər ərzində makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası baş vermiş, qeyri-neft sektorunun və regionların inkişafı sürətlənmiş, valyuta ehtiyatlarının səmərəli idarə edilməsi və milli valyutanın sabitliyi təmin olunmuş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, biznes mühiti daha da yaxşılaşmışdır.

Bunun nəticəsidir ki, ölkəmizdəki davamlı inkişaf, iri regional və beynəlxalq layihələrin həyata keçirilməsi, müxtəlif infrastruktur layihələrinin icrası Azərbaycanı investorlar üçün daha cəlbedici etmişdir. Son dövrdə Azərbaycan iqtisadiyyatının sürətli inkişafı ölkənin maliyyə ehtiyatlarının artmasına səbəb olmuş, bu isə öz növbəsində xarici ölkələrə sərmayə qoyuluşu üçün əlverişli şərait yaratmışdır. Artıq Azərbaycan investisiya alan ölkədən investisiya verən ölkəyə çevrilmişdir. Bu baxımdan Azərbaycanın dövlət və özəl şirkətləri xarici ölkələrdə neft-kimya, qaz, yol və digər layihələrdə uğurla iştirak edir və xaricdə yatırılan investisiyaların dinamikasında müsbət irəliləyiş müşahidə olunur.

Son dövrlərdə ölkə iqtisadiyyatının inkişafında sahibkarlıq fəaliyyətinə daha çox dəstək verilmişdir. Buna görə də 2014-cü ildə Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilməsi məqsədilə müvəkkil kredit təşkilatlarına Aran iqtisadi rayonu üzrə 108, Gəncə-Qazax iqtisadi rayonu üzrə 445, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 161, Lənkəran iqtisadi rayonu üzrə 195, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 170, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 147, Abşeron iqtisadi rayonu üzrə 81, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 72 və Bakı şəhəri, ətraf kənd və qəsəbələri üzrə 223 müraciət daxil olmuşdur. 2014-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilməsi məqsədilə müvəkkil kredit təşkilatlarına müraciət etmiş sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli kredit tələbatı 241 719.5 min manat, o cümlədən Aran iqtisadi rayonu üzrə 78 268.4 min manat (32.4%), Abşeron iqtisadi rayonu üzrə 31024 min manat (12.8%), Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 863.5 min manat (0.4%), Şəki-Zaqatala iqtisadi rayonu üzrə 16 520 min manat (6.8%), Lənkəran iqtisadi rayonu üzrə 9 043.6 min manat (3.7%), Quba-Xaçmaz iqtisadi rayonu ğzrə 23 643.5 min manat (9.8%), Gəncə-Qazax iqtisadi rayonu üzrə 16 850.9 min manat (7%), Dağlıq Şirvan iqtisadi rayonu üzrə 4 402.8 min manat (1.8%) və Bakı şəhəri, ətraf kənd və qəsəbələri üzrə 61 102.7 min manat (25.3%) təşkil etmişdir.

Beləliklə 2014-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilməsi məqsədilə müvəkkil kredit təşkilatlarına müraciət etmiş sahibkarlıq subyektlərinin investisiya layihələrinin sayı ötən illə müqayisədə 1.3 dəfə çox olmuşdur.

2004-2018-ci illərdə sahibkarlığa dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsi, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəliliyinin yüksəldilməsi sahəsində mühüm uğurların qazanılmasına imkan yaratmışdır.

Dövlət proqramında qeyri-neft sektoru üzrə sahibkarlığın gələcək inkişafının aşağıdakı əsas vəzifələri müəyyənləşdirilmişdir:

- sahibkarlıq fəaliyyətini və ona dövlət dəstəyini tənzimləyən hüquqi-normativ bazanın təkmilləşdirilməsi;
- sahibkarlığın inkişafına yönəldilən maliyyə-kredit mexanizmlərinin inkişafı və təkmilləşdirilməsi;
- prioritet sahibkarlıq layihələrinin maliyyələşdirilməsi mənbələrinin aşkar olunması və dövlət tərəfindən tənzimlənməsi;
- səmərəli sahibkarlıq fəaliyyəti üçün yüksək ixtisaslı kadrların hazırlanması;
- sahibkarlıq subyektləri tərəfindən rəqabətqabiliyyətli məhsulların bazarlara çıxarılması;
- sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyətinin genişləndirilməsi.

Ölkədə investisiya strategiyasının düzgün müəyyən olunması iki mərhələni əhatə edir. Birinci mərhələdə regionun mövcud iqtisadi təhlilinin və qiymətləndirilməsinin həyata keçirilməsi;

İnvestisiya strategiyasının formalaşmasının ikinci mərhələsində rgionun texnoloji parametrləri və əsas vəzifələri əsas vəzifələri müəyyən edilir. Həmin vəzifələr aşağıdakılardan ibarətdir:

1. Regional iqtisadiyyatın inkişaf konsepsiyasının işləyib hazırlaması;

2. Regional iqtisadiyyatın real sektorunda investisiya fəaliyyətinin aktivləşdirilməsinə təsir edən amillərin aşkar olunması;

- regionun perspektiv inkişaf strategiyası əsasında prioritet strukturların müəyyən olunması;
- prioritetləri strukturların müəyyən olunması;
- regionun investisiya strategiyasının konseptual əsaslarının aşkar olunması.

İkinci fəslin "Regionların sosial iqtisadi inkişafında investisiyanın rolu" adlanan üçüncü paraqrafında regional iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına təsir istiqamətləri təhlil edilmiş və bir sıra səmərəli təkliflər, tövsiyyələr irəli sürülmüşdür. Belə ki, Azərbaycanda müstəqil milli iqtisadiyyatın formalaşmasında regionların sosial-iqtisadi inkişaf strategiyası mühüm rola malikdir. Dövlət tərəfindən proqramda qarşıya qoyulan məqsədə çatmaq üçün bir sıra vəzifələr müəyyən edilmişdir. Onlara:

- dayanmış müəssisələrin istehsal fəaliyyətini bərpa etmək və yeni istehsal müəssisələri yaratmaq;
- yerli resurslardan səmərəli istifadəni stimullaşdırmaq;
- aqrar bölmədə islahatları sürətləndirmək və müxtəlif seviz xidmətləri yaratmaq;
- məşğulluq probleminin həll olunmasını stimullaşdırmaq və s.

Qeyd etmək lazımdır ki, Dövlət Proqramı üzrə qarşıya qoyulmuş vəzifələrin icra olunması nəticəsində ölkədə 27,5 mindən çox yeni müəssisə yaradılmış, 547,5 min daimi iş yeri açılmış, yoxsulluğun səviyyəsi 13,2 faizədək azalmışdır. Bu müddətdə ümumi daxili məhsulun real həcmi 2,6 dəfə, qeyri neft sektorunda məhsul istehsalı 1,8 dəfə artmış, iqtisadiyyatın bütün sahələrində dinamik artım müşahidə edilmiş, o cümlədən sənaye istehsalı 2,5 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 25,2 faiz, əhalinin gəlirləri 4 dəfə artmışdır.

Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı özündən əvvəlki proqramının davamı olaraq xeyli dərəcədə fərqli strateji vəzifələri müəyyən edilmişdir:

- Ölkədə qeyri-neft sektorunun inkişafının daha da sürətləndirilməsinə üstünlük verilməsi;
- Iqtisadiyyatın diversifikasiyasına xüsusi diqqət yetirilməsi;
- Regionların tarazlı və üstün sosial-inkişafına nail olunması;
- Bütün regionlarda sahibkarlığın tarazlı inkişafına əlverşli mühit yaradılması;
- Iqtisadiyyatın inkişafına investisiya qoyuluşlarının həcminin artırılması;
- Müasir tipli infrastruktur obyeklərinin yaradılması;
- Ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması
- Əhalinin məşğulluq səviyyəsinin artırılması;

- Yoxsulluq səviyyəsinin azaldılması və s.

2009-2013-cü illərdə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramında irəli sürülən bu strateji vəzifələr ardıcıl olaraq yerinə yetirilmiş və qarşıya qoyulmuş məqsədlərə nail olunmuşdur. Qeyd etmək lazımdır ki, 2009-2013-cü illəri əhatə edən Dövlət Proqramı regionların sosial-iqtisadi inkişafında və ölkənin iqtisadi potensialının gücləndirilməsində mühüm rol oynadı. Bu dövrdə ölkə iqtisadiyyatı 3,4 dəfə, sənaye istehsalı isə 2,7 dəfə artmışdır. Ümumdaxili məhsul 6 faiz, qeyri-neft sektoru 9,8 faiz, əhalinin pul gəlirləri 8 faiz inflyasiya səviyyəsi təşkil etmişdir.

Azərbaycanda 2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edildikdən sonra ölkə iqtisadiyyatının bütün sferalarında mühüm irəliləyişlərin baş vermişdir. Bu proqramda əsasən aşağıdakı sosial-iqtisadi problemlərin sürətlə inkişafı müəyyən edildi:

- Ölkədə qeyri-neft sektorunun davamlı inkişafına daha çox üstünlük verilməsi;
- Iqtisadiyyatın ixracyönümlülüyünün və rəqabətqabilətliliyinin artırılması;
- Sosial infrastruktur sisteminin daha da genişləndirilməsi;
- Regionlarda kommunal xidmətlərin yaxşılaşdırılması;
- Regionlarda sahibkarlığın və biznesin bütün üstünlüklərindən istifadə olunması;
- Yeni müəssisələrin və iş yerlərinin açılması;
- Investisiya qoyuşlarının həcminin artırılması;
- Pul-kredit sistemində əsaslı islahatların aparılması;

Yuxarıda göstərilən bu strateji məqsəd və vəzifələr ölkənin gələcək dövr üçün sosial-iqtisadi inkişaf strategiyasında əsaslı dönüş yaradacaqdır. Müstəqil Azərbaycan iqtisadiyyatında həyata keçirilən səmərəli iqtisadi siyasət nəticəsində sənayeləşmə prosesinin miqyası daha da genişlənmişdir. Son on il ərzində sənaye istehsalı 2,7 dəfə, elektrik avadanlıqlarının istehsalı 25 dəfə, metallurgiya sənayesi 2,2 dəfə artmışdır. 2014-cü ildə sənayedə 33,7 milyard manatlıq məhsul və xidmətlər istehsal olunmuş və bu sahədə əsas kapitala yönəldilmiş investisiya 2003-cü illə müqayisədə 2,4 dəfə artaraq 7 milyard manat olmuşdur sənayedə işləyənlərin ümumi sayında qadınlar 21,1 faiz xüsusi çəkiyə malik olmuşdur. Bu göstərici son beş ildə dövlət sektorunda 21,2 faiz, qeyri-dövlət sektorunda isə 20,9 faiz təşkil edir.

2014-cü ildə ölkənin sənaye sektorunda çalışanların sayı 183,1 min nəfərə bərabər olmuşdur. Bunların daha çox hissəsi mədənçıxarma, emal sənayesi sahələrində, elektrik enerjisi, qaz və buxar istehsalı sahələrində çalışırlar.

Azərbaycanda gələcək dövr üçün sənaye siyasətinin strateji məqsədlərinin reallaşdırılmasında aşağıdakı mühüm istiqamətlərə xüsusi diqqət yetirilməlidir:

- Azərbaycanın daxili tələbatını ödəyə bilən sənaye məhsullarının istehsalına daha çox üstünlük verilməlidir;

- Dövlətin regional, struktur və investisiya siyasətləri ilə sənaye siyasəti qarşılıqlı surətdə əlaqələndirməlidir;

- Ölkənin milli sənayesinin formalaşmasında dünya ölkələrinin qabaqcıl təcrübəsindən istifadə olunmalıdır (qənaətcil, resursqoyuluşu və innovasiya yönümlü);

- Qeyri-neft sənayesinin məhsullarının ixrac potensialının artırılmasına daha çox üstünlük verilməlidir;

Dövlətin regional sənaye siyasəti ilə digər sahələrin qarşılıqlı surətdə əlaqələndirilməsinə daha çox üstünlük verilməlidir.

Dövlətin regional siyasətində mühüm istiqamətlərdən biri də aqrar bölmənin bütün sahələrinin inkişaf etdirilməsidir. Ölkə prezdenti tərəfindən 2015-ci il Kənd Təsərrüfatı ili" elan olunmuşdur. Azərbaycanda ərzaq təhlükəsziliyinin təmin edilməsində bütün regionların hərtərəfli inkişafı xüsusi yer tutur. Son dövrdə respublika əhalisinin bütün kənd təsərrüfat məhsulları ilə təmin olunmasında əsaslı irəliləyiş baş vermişdir. Xüsusilə, heyvandarlıq, bitkiçilik, quşçuluq, dənli bitkilər sahəsində dünya ölkələrinin təcrübəsindən geniş surətdə istifadə olunur.

Respublikamızda aqrar bölmənin gələcəkdə daha da təkmilləşdirilməsi məqsədilə bir sıra mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- Keyfiyyətli yem təminatının vəziyyətinin yaxşılaşdırılması və ondan təkrar əkin prosesində səmərəli istifadə olunması;

- Ölkədə toxuma olan tələbatın davamlı olaraq təmin edilməsi;

- Kənd təsərrüfatında istehsalın fasiləsizliyini təmin etmək məqsədilə müasir texniki seviz xidmətnin yaradılması və istifadə olunması;

- Yararlı torpaqlardan istifadəyə görə istehsalçılara maddi texniki xidmət göstərilməsi;

- Aran rayonlarında torpaqdan səmərəli istifadə etmək və məhsuldarlığı artırmaq məqəsdilə meliorasiya imkanlarından istifadə olunması və s.;

Regionların sosial-iqtisadi inkişafında mühüm konseptual problemlərdən biri də real sektorun inkişafında bankların fəaliyyətindən səmərəli istifadə olunmasıdır. Son illərdə bankların nizamnamə kapitalı daha da artmışdır ki, bu da onların gücünün artmasına və pul resurslarından məqsədli istifadə olunmasına imkan yaratmışdır. Azərbaycanda gələcəkdə regionların sosial-iqtisadi inkişafının daha da təkmilləşdirilməsi məqsədilə aşağıdakı tövsiyyələrin nəzərə alınması məqsədəuyğun hesab olunur:

- Regionların mövcud təbii-iqtisadi və əmək potensialından istifadə etmklə iqtisadiyyatın ixracyönümlülüyünün təmin olunması;

- Regionlar üzrə qeyri-neft sektoru sahələrinin tarazlı inkişafına yönəldilən investisiya qoyuluşlarının fəallığının artırılması;

- Rəqabət-qabiliyyətli məhsul istehsal edən sahibkarların fəaliyyətinin dövlət tərəfindən stimullaşdırılması;

- Fəaliyyətdə olan sahibkarlıq obyektlərinin müasir infrastruktur sisteminin yaradılması və beynəlxalq standartlara uyğunlaşdırılması;

- Bir sıra regionlarda sərbəst (azad) iqtisadi zonaların yaradılması və onların milli iqtisadi mənafelərə uyğun fəaliyyət göstərilməsi;

- Milli və regional bazarların yerli rəqabət qabiliyyətli məhsullarla təmin edilməsinə nail olunması;

- Dağlıq və dağətəyi rayonlarda əhalinin məşğulluğunu təmin etmək məqsədilə yeni müəssisələrin yaradılmasına investisiya qoyuluşlarının həcminin daha da artırılması və s.

Müasir dövrdə Azərbaycanın qeyri-neft sektoruna qoyulan investisiyaların ümumi həcmi ardıcıl olaraq artır. Bunu aşağıdakı cədvəl materialları əsasında təhlil etmək olar.

Cədvəl 2.

Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyalar

| İllər | 2005 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|
| İnvestisiya qoyuluşları bütün mənbələr üzrə (xarici investisiyalar nəzərə alınmaqla): mln.manat | 6733,4 | 10475,0 | 14118,9 | 17048,8 | 20250,7 | 21448,2 | 21890,6 |
| mln.dollar | 7118,5 | 13033,5 | 17591,5 | 21588,9 | 25777,3 | 27340,0 | 27907,5 |
| Xarici investisiyalar: mln.manat | 4628,5 | 4395,1 | 6619,7 | 6849.8 | 8102,7 | 8269,3 | 9175,6 |
| mln.dollar | 4893,2 | 5468,6 | 8247,8 | 8673.9 | 10314,0 | 10540,9 | 11697,7 |
| Daxili investisiyalar: mln.manat mln.dollar | 2104,9 2225,3 | 6079,9 7564,9 | 7499,2 9343,7 | 10199,0 12915,0 | 12148,0 15463,3 | 13178,9 16799,1 | 12715,0 16208,8 |

Cədvəldən göründüyü kimi 2005-2014-cü illərdə bütün mənbələr üzrə investisiya quyuluşları dinamik olaraq artmışdır. Bununla yanaşı həmin illərdə xarici investisiyalarda da ardıcıl olaraq artım müşahidə olunur. Lakin daxili investisiyaların həcmi son illərdə xeyli dərəcədə azalmışdır.

Cədvəldən göründüyü kimi göstərilən dövrdə Azərbaycan iqtisadiyyatına Türkiyə, Böyük Britaniya, Niderland daha çox investisiya yönəltmişdir.

Azərbaycanda ölkə daxili maliyyə ehtiyatlarının məhdud olması ölkənin istehsal və sosial strukturunun yenidən qurulmasında beynəlxalq maliyyə təşkilatlarının geniş imkanlardan istifadə olunur. Azərbaycana kredit verən təşkilatların önündə Avropa İttifaqı (TACIS, TRACECA, INOGATE), BVF,Dünya Bankı (IBRD), ABŞ İxrac və İdxal Bankı, Beynəlxalq İnkişaf Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Türk Eksimbankı, İnkişaf Bankı (IsDB), Yaponiya Beynəlxalq Müttəfiqlik Bankı, Qaradəniz Ticarət və İnkişaf Bankı (BSTDB), IFC, və KfW,Almaniya durur. Zəmanət baxımından sərmayə riskinin azaldılması üçün ÇoxTərəfli İnvestisiya Zəmanət Agenti (MIGA) Azərbaycanda fəaliyyət göstərir. Bu təşkilatlar tərəfindən açılan kreditlər, bazar iqti-

sadiyyyatına keçidi asanlaşdırmaq məqsədiylə açılan layihə kreditləridir. Xarici kredit almaqla yanaşı Azərbaycana beynəlxalq təşkilatlar tərəfindən yardımlar da edilir.

Bir çox beynəlxalq iqtisadi təşkilatla əlaqəsi olan Azərbaycan regional iqtisadi və ticarət əlaqələri baxımından bir sıra təşkilatların üzvdür.

Azərbaycana investisiya yatıran Avropa Yenidən Qurma və İnkişaf Bankı ilə Əlaqələr son dövrdə xeyli inkişaf etmişdir. Bu isə, Azərbaycanda qeyri-neft sektorların inkişafını təşviq edir.

Beynəlxalq maliyyə institutları Azərbaycanın təbii-iqtisadi potensialını nəzərdə tutaraq mütəmadi olaraq kredit və investisiya qoyuluşlarına daim dəstək verirlər. Bu isə ölkədə qeyri-neft sektorunun inkişafına böyük töhvədir.

Cədvəl 3.

Dünya ölkələri tərəfindən yatırılmış xarici investisiyalar
(mlyn. ABŞ dolları)

| İllər | 2005 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi xarici investisiya | 4893,2 | 6847,4 | 5468,6 | 8247,8 | 8673,9 | 10314,0 | 10540,9 | 11697,7 |
| Maliyyə kreditləri ondan: | 698,4 | 2357,9 | 1438,3 | 3405,9 | 3692,5 | 3135,5 | 2655,8 | 1880,6 |
| Neft sektoruna | 3799,9 | 3350,7 | 2412,7 | 2955,3 | 3407,8 | 4287,8 | 4935,2 | 6730,7 |
| Neft bonusu | 1,0 | 3,5 | 1,0 | 2,0 | 19,9 | 2,0 | 2,4 | 17 |
| Qeyri-neft sektoruna ondan: | 230,5 | 494,1 | 624,4 | 659,6 | 886,0 | 1094,5 | 1041,0 | 1318,5 |
| Türkiyə | 96,2 | 60,8 | 76,8 | 147,5 | 89,1 | 185,9 | 401,3 | 481,4 |
| Niderland | 1,2 | 43,8 | 28,0 | 163,5 | 173,3 | 186,0 | 103,8 | 103,8 |
| ABŞ | 24,8 | 108,8 | 117,6 | 40,0 | 73,8 | 92,5 | 24,4 | 89,3 |
| İran | 1,2 | - | 6,8 | 3,2 | 11,2 | - | - | 40,5 |
| Almaniya | 21,5 | 48,2 | 38,8 | 17,0 | 32,5 | 45,6 | 15,1 | 51,0 |
| Rusiya | 5,1 | 5,8 | 50,3 | 11,7 | 35,0 | 21,8 | 36,1 | 13,6 |
| Böyük Britaniya | 39,5 | 146,4 | 160,0 | 144,0 | 148,8 | 149,3 | 136,0 | 153,5 |
| Birləşmiş Ərəb Əmirlikləri | 5,7 | 38,5 | 43,2 | 30,3 | 75,3 | 92,4 | 109,3 | 90,2 |
| İsveçrə | - | 3,7 | 16,0 | 11,7 | 26,7 | 79,4 | 18,2 | 18,9 |
| İtaliya | 4,6 | 2,0 | 9,8 | - | - | 22,1 | 21,3 | 21,2 |
| Fransa | 2,6 | - | 4,5 | 6,2 | 14,3 | 14,4 | 6,1 | 7,2 |
| Norveç | - | - | 40,3 | 3,6 | 6,9 | - | - | - |
| Yaponiya | - | - | 2,8 | 1,4 | 2,5 | 5,4 | 3,0 | 2,9 |
| Sair ölkələr | 28,1 | 36,1 | 29.5 | 79,5 | 196,6 | 199,7 | 128,6 | 245,1 |
| Digərinvestisiyalar | 163,4 | 641,2 | 992,2 | 1225,0 | 667,7 | 1794,2 | 1906,5 | 1750,9 |

Cədvəl ADSK-nın materialları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Son dövrdə investisiya siyasəti daha çox iqtisadi artımın təmin edilməsinə və daha gəlirli sahələrin inkişaf etdirilməsinə yönəldilməlidir.

Azərbaycanda dövlət özünün strukturu və investisiya siyasətində cəmiyyətin tələbatını daha tez bir zamanda ödəyən fəaliyyət sahələrinə investisiya yönəldilməsini nəzərdə tutulmalıdır.

Milli iqtisadiyyatın bazar münasibtləri əsasında yenidən qurulması təkcə daxili maliyyə ehtiyatları hesabına deyil. Xarici kapitalın respublikaya cəlb olunması və ondan səmərəli istifadə olunması hesabına təmin olunmalıdır.

Bu məqsədlə Azərbaycan dövləti qeyri-neft sektorunun prioritetləri hesab edilən kimya, maşınqayırma, kənd təsərrüfatı və başqa sahələrdə xarici firmalarların və birgə müəssisələrin yaradılması istiqamətində bir çox layihələr həyata keçirilir.

Ölkədə «Xarici investisiyaların qorunması haqqında» fəaliyyətdə olan qanun xarici investorlar üçün istehsalın müxtəlif sahələrində müəssisələr açmağa şərait yaradır. Yaradılan birgə müəssisələrin nizamnamə fondunda xarici investorun payı 30%-dən çoxdursa, bu halda həmin müəssisə istehsal etdiyi əmtəəni respublikadan kənara lisenziyasız çıxara bilər. Əgər xarici kapitalın payı 30%-dən yuxarı olarsa onda müəssisələr üçün ən yüksək vergi dərəcəsi 25% olmalıdır. Birgə müəssisələr dağ yerlərində yaradılarsa, mənfəətdən vergi cəmi 10% təşkil edir.

Azərbaycanda xarici investisiyaların cəlb olunmasında sərbəst iqtisadi zonaların yaradılması və onun hesabına xarici kapitalın ölkəyə cəlb olunması dövlətin strateji məqsədinə çevilməlidir. Belə bir şərait regionda milli iqtisadi maraqların reallaşmasına, ölkənin iqtisadi potensialından səmərəli istifadə olunmasına birbaşa təsir göstərəcəkdir.

Bunun üçün Sumqayıt, Naxçıvan, Ələt və s. ərazilərində sərbəst iqtisadi zonaların yaradılması üçün müəyyən işlər görülmüşdür. Həmin iqtisadi zonaların yaradılması Azərbaycan Respublikası Milli Məclisində qəbul olunmuş «Xüsusi iqtisadi zonalar» və «İnvestisiya fəaliyyəti haqqında» qanunlarla tənzimlənir.

Artıq 2014-2018-ci illərdə investisiyaların idarə edilməsi prosesinin yaxşılaşdırılması məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Bu tədbirlər yoxsulluğun azaldılması üzrə Dövlət proqramı çərçivəsində həyata keçiriləcək. 2014-2018-ci illər ərzində Iqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən İnvestisiya layihələrinin iqtisadi cəhətdən əsaslandırılması və onun həcminin genişləndirilməsi nəzərdə tutulur. Bundan başqa respublikanın bütün rayonlarının sosial-iqtisadi inkişafı imkanlarını özündə əks etdirən İnvestisiya xəritələrinin hazırlanması nəzərdə tutulur.

Azərbaycanda daxili və xarici investisiyaların kompleks proqramlarının stimullaşdırılması və reallaşdırılmasında investisiya fəaliyyətinin qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi tədbirlərinə aşağıdakılar aiddir:

- investisiyaların maliyyə, valyuta, vergi, gömrük, tarif və qeyri-tarif tənzimlənməsi haqqında qanunvericlik aktlarının və digər normativ sənədlərin sabitliyinin təmin olunması;
- hüquqi-normativ sənədlərdə vaxtaşırı nəzərdə tutulan dəyişikliklər haqqında informasiyaların əldə olunması;
- investisiyaların idarə olunmasının vahid sisteminin yaradılması.

İnkişaf etmiş xarici ölkələrin təcrübəsi göstərir ki, ümumi daxili məhsulun tərkibində bütün mənbələr hesabına investisiya qoyuluşunun xüsusi çəkisi 30-35% olduqda, bu istehsalın artımına, iqtisadi yüksəlişə zəmin yaradır və istehsal daha sürətlə inkişaf etdirilir.

Azərbaycan iqtisadiyyatının tarazlı və sabit inkişafını təmin etməklə iqtisadiyyatın bütün sahələrinə xarici investisiyaların cəlb olunmasını stimullaşdırmaq

məqsədilə güzəştli vergiqoyma, ikiqat vergiqoymadan azad etməni tətbiq etməklə, investisiyanın Azərbaycan iqtisadiyyatına axınını gücləndirmək olar.

Ölkədə sahibkarlığın inkişafında investisiya qoyuluşlarını stimullaşdırmaq üçün aşağıdakı təkliflər nəzərə alınmalıdır.

- səmərəli investisiya siyasətinin işlənib hazırlanması;
- gəlirli investisiya layihələrinin maliyyə mənbələrnin müəyyən edilməsi;
- iqtisadi cəhətdən əsaslandırılmış investisiya layihələrinin tender vasitəsilə əldə olunması və onların reallaşdırılmasına nail olunması;
- qeyri-neft sektorunun inkişafında real və maliyyə investisiyalarının üstünlüklərindən istifadə olunması;

Müasir şəraitdə dövlətin səmərəli investisiya siyasəti kapital qoyuluşlarının maliyyə mənbələrinin müyyən olunmasına, resurslardan daha səmərəli istifadə olunmasına, müasir infrastruktur sisteminin yaradılmasına təkan verir. Bunları reallaşdırmaq üçün dövlət tərəfindən elmi cəhətdən əsaslandırılmış məqsədli proqramlar işlənib-hazırlanır.

Respublikada dövlətin investisiya siyasətinin mühüm istiqamətlərinə aşağıdakı məsələlər daxildir:

– xarici və daxili investisiya mənbələrinin artırılması;
– investisiyaların daha cox iqtisadiyyatın prioritet sahələrinin inkişafına yonəldilməsi;
– investisiya resursları bazarının formalaşması və genişləndirilməsi;
– investisiya sığortasının huquqi-iqtisadi bazanın yaradılması;
– investisiya tsiklinin davam etməsi muddətinin qısaldılması.

Bütün bunlarla yanaşı dövlət investisiya fəaliyyətinin tənzimlənməsində muxtəlif metodlardan edir. Onlara aşağıdakıları aid etmək olar :

– vergitutma subyektlərinin və obyektlərinin, vergi dərəcələrinin və guzəştlərinin müəyyənləşdirilməsi;
– investisiya fəaliyyətində güzəştli kredit formalarından istifadə olunması;
– ayrı-ayrı regionlara, sahələrə və istehsalatçılara subvensiya, subsidiya və digər borclarının verilməsi;
– investisiya sferasında antiinhisar tədbirlərinin gorulməsi;
– mülkiyyətin özəlləşdirilməsi sisteminin surətləndirilməsi;
– qiymətqoyma siyasətinin elmi cəhətdən əsaslandırılması;
– investisiya layihələrinin ekspertizasının kecirilməsi.

Xarici investisiya siyasəti Azərbaycan dövlətinin umumi investisiya siyasətinin muhim tərkib hissəsi olub, milli iqtisadiyyatın yuksəlməsində, onun stabil inkişafında və əhalinin səmərəli məşğulluğunun təmin edilməsində özunəməxsus rol oynayır. Bu siyasətin həyata kecirilməsi üçün xususi investisiya proqramları işlənib hazırlanmalı və hərtərəfli formada reallaşdırılmalıdır.

Üçüncü fəslin "Qeyri-neft sektoruna yönəldilmiş investisiyaların səmərəliliyinin yüksəldilməsi yolları" adlanan ikinci paraqrafında qeyri-neft sektoruna yönəl-

dilmiş investisiyaların səmərəlilik meyarları göstərilmiş və perspektivdə onun təkmilləşdirilməsi yolları müəyyən edilmişdir.

Hal-hazırda ölkənin qeyri-neft sektoruna İnvestisiya qoyuluşlarının iqtisadi səmərəliliyinin yüksəldilməsi yollarının, İnvestisiya resurslarından səmərli istifadə mexanizmlərinin tənzimlənməsi və iqtisadiyyatın strukturunun təkmilləşdirilməsində İnvestisiyalardan istifadə istiqamətlərinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, İnvestisiya layihələri müxtəlif məqsədlər üçün hazırlana bilər. Dünya ölkələrinin təcrübəsində investisiya layihələrinin işlənilməsinin müxtəlif üsullarından istifadə olunur. Dünya ölkələrində investisiya layihələrinin məzmunu və əsas bölmələri müəyyən dərəcədə standartlaşdırılmışdır. Avropa İqtisadi Birliyinin tələblərinə görə, investisiya laiyhələrinin tərkibində yeddi əsas bölmənin olması vacibdir. Bu bölmələrə aşağıdakılar aid edilir:

- Layihəni həyata keçirən müəssisənin ümumi xaratkeristikası;
- İstehsal ediləcək məhsulun xarakteristikası;
- Marketinq tədqiqatı planı;
- İşçi heyəti;
- İstehsalın həcmi;
- Maliyyə planı;
- İstehsal proqrammı

Bundan başqa, layihənin tərkibində, xüsusi bölmədə əsas texniki iqtisadi göstəricilər verilir. Çox vaxt layihənin bölmələrinin məlumatları əsasında xülasə verilir. İnvestisiya layihəsinin işlənilməsi əsasında 3 vacib məsələyə xüsusi diqqət yetirilir:

- Müəyyən məhsul növünün istehsal olunması mümkünlüyü sübuta yetirilir;
- Layihənin həyata keçirilməsinə mane ola biləcək qeyri-müəyyənlik hallarının aradan qaldırılması imkanı araşdırılır;
- Istehsalı planlaşdırılan məhsul növünə olan tələbat müəyyənləşdirilir və bazar qiymətinin aşağı və yuxarı hədləri proqnozlaşdırılır

Göstərilən məsələlər həll edildikdən sonra, investisiya layihəsinin həyata keçirilməsinin mümkünlüyü əsaslandırılmış olur. Bununla da, potensial investor qeyri-müəyyənlik hallarından azad olur, İnvestisiyanın müxtəlif alternativ variantlarını müqayisə etmək yolu ilə maraqlı variantı seçmək imkanı əldə edir.

Metodoloji nöqteyi-nəzərdən investisiya layihəsində aşağıda göstərilənlərə xüsusi diqqət yetirilməlidir:

- İnvestisiyanın yönəldilməsi istiqamətinin xarakterik cəhətləri;
- İnvestisiya layihəsinin həyata keçirilməsindən gözlənilən son nəticə;
- İnvestisiya layihəsinin həyata keçirilməsi üçün lazım olan İnvestisiyanın həcmi;
- İnvestisiyanın maliyyələşdirilməsi mənbələrinin planlaşdırılması;
- İnvestisiya layihəsinin həyata keçirilməsinə çəkilən xərclərin geri qaytarılması şərtləri və potensial investorların əldə ediləcəkləri gəlir.

İnvestisiya layihələrinin həyata keçirilməsi üçün onun səmərəliliyinin yüksəldilməsi yollarının müəyyən olunması olduqca vacibdir.

İnvestisiya layihələrinin səmərəliliyinə aşağıdakıları aid etmək olar:

- Kommersiya (maliyyə) səmərəliliyi;

İnvestisiya layihələrində səmərəliliyi müəyyən edilərkən xərc və nəticələrin qiymətləndirilməsi zamanı aşağıdakılar nəzərə alınmalıdır:

- obyektlərin yaradılması, istismarı və ləğv edilməsi müddəti;
- texnoloji avadanlıqların orta xidmət müddəti;
- gəlirin nəzərdə tutulan xarakteristikasına nail olunması;
- investorların tələbi və s.

İnvestisiya layihələrinin səmərliliyinin başqa göstəriciləri kimi, xərcin çıxarılmasının daxili normasının müəyyən edilməsi metodikasından istifadə olunur.

İnvestisiya layihələrinin səmərəliliyində ictimai səmərəlilik göstəriciləri mühüm yer tutur.

İctimai səmərəlilik göstəriciləri investisiya layihələrinin həyata keçirilməsinin cəmiyyət üçün bütövlükdə sosiali-iqtisadi nəticələrini əks etdirir.

Kommersiya səmərəliliyi göstəriciləri investisiya layihəsini həyata keçirən iştirakçıların fəaliyytəinin maliyyə nəticələrini əks etdirir. Yeni investisiya layihələrinin həyata keçirilməsi üçün xərclərin və gəlirlərin nisbəti hansı səviyyədə olmuşdur.

1995-2014-cü illərdə Azərbaycanda iqtisadiyyata yönəldilən investisiyaların həcmini müəyyən etmək üçün aşağıdakı cədvəl məlumatlarını təhlil etmək lazımdır.

Cədvəl 4.

İqtisadiyyata yönəldilən investisiyalar (mln. dollar)

| Göstəricilər | 1995 | Xüsusi çəkisi | 2014 | Xüsusi çəkisi | 2014-cü il 1995-ci ilə nisbətən, dəfə |
|---|---|---|---|---|---|
| İnvestisiya qoyuluşları bütün mənbələr üzrə (xarici İnvestisiyalar nəzərə alınmaqla) | 544 | 100 | 27907,5 | 100 | 51,3 |
| Xarici investisiyalar | 375,1 | 68,9 | 11697,7 | 41,9 | 31,0 |
| Daxili investisiyalar | 168,9 | 31,1 | 16209,8 | 58,1 | 95,9 |

Cədvəl ADSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl məlumatlarının təhlili göstərir ki, kapital qoyuluşlarının strukturunda daxili investisiyaların xüsusi çəkisi getdikcə artır və o əsas maliyyə mənbəyinə çevrilir. Belə ki, 2014-ci ildə ölkə üzrə 27907,5 mln dollar həcmində kapital qoyuluşunun 16209,8 mln. dolları və ya 58,1 %-i daxili İnvestisiyaların payına düşür (cədvəl 4).

Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşunun miqdarı 2014-ci ildə 11697,7 mln. dollar olmuşdur. Bu məbləğ əvvəlki illə müqayisədə 31,0 faiz artmışdır.

Azərbaycanda qeyri-neft sahələrinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində ölkəmizin maliyyə imkanları ilbəil çoxalacaq və əldə olunan gəlirlər hesabına milli iqtisadiyyatın diversifikasiyası istiqamətində mühüm addımlar atılacaqdır. Tədqiqat prosesində Azərbaycanda qeyri-neft sektoruna investisiya qoyuluşunun artırılması istiqamətlərində geniş miqyaslı işlərin görülməsi təhlil olunmuş və aşağıdakı nəticələr əldə olunmuşdur:

- Qeyri-neft sektorunun milli iqtisadiyatın modernləşdirilməsində və ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılmasında rolu müəyyən edilmiş bir sıra səmərəli təkliflər irəli sürülmüşdür;

-Azərbaycanda xarici investisiyaların qeyri-neft sektorunun inkişafına yönəldilməsinin strateji imkanları göstərilmiş və investisiya qoruyucu mexanizmlər müəyyən edilmişdir;

- Ayrı-ayrı iqtisadi sahələri üzrə xarici investisiyaların cəlbediciliyinin yüksəldilməsi ilə yanaşı, milli iqtisadiyyatda gəlirlətin və real yığımların hesabına daxili maliyyə mənbələrinin genişləndirilməsi və ondan daxili investisiya mənbəyi kimi istifadə olunması təkmilləşdirilməlidir;

- Xarici investorların ölkəmizə cəlb olunmasının hüquqi-iqtisadi bazasının daha da möhkəmləndirilməsi üçün qanunların və qanunvericilik aktlarınının təkmilləşdirilməsinə yenidən baxılmalıdır;

- Azərbaycan Respublikasında müxtəlif layihələr çərçivəsində özəl sektorun kreditləşməsi ilə məşğul olan maliyyə-kredit təşkilatlarının fəaliyyətinin effektivliyi artırılmalı, bu sahədə idarəetmə strukturu sadələşdirilməlidir;

- Qeyri-neft sektoru məhsullarının rəqabətqabiliyətliliyi yüksəldilməli və onun icraxyönümlülüyü təmin olunmalıdır;

- Ölkəyə yeni texnika və texnologiya idxalında gömrük rüsumları azaldılmalı və müəyyən vergi güzəştləri edilməlidir;

-xarici investisiyalar daha çox ixrac yönümlü emal-sənaye sahələrinə cəlb olunmalıdır;

-neft və neft məhsullarının ixracından əldə olunan valyutanı milli iqtisadiyyatın digər sahələrinə yönəldilməsi təmin edilməlidir;

–qeyri-neft sektoru sahələrinin investisiya mühiti yaxşılaşdırılmalı və xarici investorların bu sahələrə gəlməsi maraqları stimullaşdırılmalıdır;

–xarici ticarət dövriyyəsində qeyri-neft sektoru sahələrinin məhsullarına daha çox üstünlük verilməlidir;

–qeyri-neft sektorunda modernləşdirilmiş sənaye müəssisələri şəbəkəsinin yaradılmasına nail olunmalıdır;

–qeyri-neft sektorunda ixrac potensialının artırılması məqsədilə xüsusi iqtisadi zonaların yaradılmasına dövlət dəstəyi gücləndirilməlidir;

- rəqabət qabiliyyətli məhsul istehsalı edən prioritet sahələrin inkişafına investisiyaların həcmi daha da artırılmalıdır;

- Qeyri-neft sektorunda yeni iş yerlərinin açılmasına təkan verən sahələrin yaradılmasına üstünlük verilməlidir;

- istehsal prosesində təbii resurslardan səmərəli istifadə üçün əlverişli təşkilati-iqtisadi şəraitin yaradılmasına üstünlük verilməlidir;

- Respublikamızda elmtutumlu və innovasiya yönümlü texnologiyaların yaradılmasına daha çox investisiya cəlb olunmalıdır;

- daxili investisiyaların istehsala axını və onun stimullaşdırılması dövlət tərəfindən tənzimlənməlidir;

- müəssisə, firma və şirkətlərin investisiya qoyuluşlarının həcminin mənfəət və amortizasiya ayırmaları hesabına artırılmasına üstünlük verilməlidir;

- dövlət və kommersiya banklarının uzunmüddətli kreditlərindən istifadə olunmasına əlverişli şərait yaradılmalıdır;

- fond bazarında və əhalinin əmanətləri hesabına formalaşan investisiya resurslarının stimullaşdırılması;

- daxili və xarici investisiya qoyuluşları risklərinin sığorta mexanizmlərinin tətbiqinə üstünlük verilməlidir;

– regionların coğrafi şəraitinə uyğun olaraq onlar arasında investisiyaların bölüşdürülməsinin optimallığı təmin edilməlidir;

– ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin genişləndirilməsinə və insan kapitalına qoyulan investisiyaların prioritetliyinə nail olunmalıdır;

– daxili investisiyalarla yanaşı birbaşa xarici investisiyaların ixracyönümlülüyü daha da gücləndirilməlidir;

– restruktruzasiya prosesinin davam etdirilməsi yolu ilə yerli müəssisələrin investisiya cəlbediciliyi artırılmalıdır;

- investisiyaların maliyyə, valyuta, vergi, gömrük, tarif və qeyri-tarif tənzimlənməsi haqqında qanunvericlik aktların və digər normativ sənədlərin sabitliyi təmin olunmalıdır;

– investisiya resursları bazarının fəaliyyətinin daha da genişləndirilməsinə dövlət dəstəyi gücləndirilməlidir;

– Azərbaycanın daxili tələbatını ödəyə bilən sənaye məhsullarının istehsalına daha çox üstünlük verilməlidir;

– Dövlətin regional, struktur və investisiya siyasətləri ilə sənaye siyasəti qarşılıqlı surətdə əlaqələndirməlidir;

– Ölkənin milli sənayesinin formalaşmasında dünya ölkələrinin qabaqcıl təcrübəsindən istifadə olunmalıdır (qənaətcil, resursqoyuluşu və innovasiya yönümlü);

– Qeyri-neft sənayesinin məhsullarının ixrac potensialının artırılmasına daha çox üstünlük verilməlidir;

– Dövlətin regional sənaye siyasəti ilə digər sahələrin qarşılıqlı surətdə əlaqələndirilməsinə daha çox üstünlük verilməlidir.

- Regionların mövcud təbii-iqtisadi və əmək potensialından istifadə etmklə iqtisadiyyatın ixracyönümlülüyünün təmin olunması;

- Regionlar üzrə qeyri-neft sektoru sahələrinin tarazlı inkişafına yönəldilən investisiya qoyuluşlarının fəallığının artırılması;

- Rəqabət-qabiliyyətli məhsul istehsal edən sahibkarların fəaliyyətinin dövlət tərəfindən stimullaşdırılması;

- Fəaliyyətdə olan sahibkarlıq obyektlərinin müasir infrastruktur sisteminin yaradılması və beynəlxalq standartlara uyğunlaşdırılması;

- Bir sıra regionlarda sərbəst (azad) iqtisadi zonaların yaradılması və onların milli iqtisadi mənafelərə uyğun fəaliyyət göstərilməsi;
- Milli və regional bazarların yerli rəqabət qabiliyyətli məhsullarla təmin edilməsinə nail olunması.

Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdaki işləri çap edilmişdir:

1. Научно практический журнал: “Финансы и Учет”. №2 Март-Апрель 2012.(Москва) ISSN 2219-8091. Правовая база и программы развития инвестиционной политики Азербайджанской Республики.
2. Научно практический журнал: “Экономика Управление Право”. №4 Апрель 2012.(Москва) ISSN 2079-9985. Перспективы развития и проблемы рынка услуг Азербайджанской Республики.
3. Научно практический журнал: “Агросвит”. №13 Июль 2012.(Киев) Финансирование сельского хозяйства и роль коммерческих банков в привлечении инвестиций в аграрный сектор Азербайджана.
4. Научно практический журнал: “ Инвестиции практика та досвид”. №10 Май 2012(Киев). Развитие туристической деятельности и её влияние на национальную экономику Азербайджана.
5. Международная научно практическая конференция (30 июля 2012 г. Москва) Актуальные вопросы современной науки.Основные особенности развития туристического сектора в Азербайджанской республике.
6. Azərbaycan milli elmlər akademiyası iqtisadiyyat institutu. “Elmi Əsərlər”. №4 2012. İSBN – 978-9952-454-26-0. Ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi və onun effektivliyinin yüksədilməsi məsələləri.
7. Azərbaycan Respublikası kənd təsərrüfatı nazirliyi aqrar elm mərkəzi İSSN № 2078-6042. Azərbaycan elmi – tədqiqat kənd təsərrüfatının iqtisadiyyatı və təşkili institutunun elmi əsərləri. “Milli iqtisadiyyatın inkişafında qeyri-neft sektorunun rolu” Bakı-1-2014.
8. Azərbaycan Respublikası Maliyyə Nazirliyi İSSN 2222-5358. Maliyyə və Uçot 2014 №7 (265) iyul. “Azərbaycanda qeyri-neft sektorunun əsas inkişaf istiqamətləri”.
9. Azərbaycan milli elmlər akademiyası iqtisadiyyat institutu. “Elmi Əsərlər”. №3 2014. İSBN – 978-9952-454-32-1. Aqrar sahəyə investisiyaların cəlb edilməsi və onlardan istifadənin səmərəliliyinin yüksəldilməsi.
10. Beynəlxalq elmi-praktiki konfrans (22 noyabr 2014-cü il Bakı). Milli iqtisadiyyatın inkişafi məsələləri: Reallıqlar və perspektivlər.

# РЕЗЮМЕ

**Рустам Акиф оглу Аскеров**

## ВЛОЖЕНИЕ ИНВЕСТИЦИЙ В НЕ НЕФТЯНОЙ СЕКТОР АЗЕРБАЙДЖАНА И ЕГО РЕГУЛИРОВАНИЕ

Диссертационная работа состоит из введения, трех глав, выводов и предложений, списка использованной литературы.

Во введении обосновывается актуальность избранной темы, формулируется цель и задачи исследования, выдвигается основные теоретические и методологические предпосылки исследования, излагается научная новизна и практическая значимость диссертации.

В I главе, озаглавленной «Теоретико-методологические основы развития не нефтяного сектора», рассмотрены правовые экономические основы не нефтяного сектора и направления его реализации, также исследована роль не нефтяного сектора в модернизации национальной экономики; далее рассматривается анализ динамики развития не нефтяного сектора в Азербайджане.

Во II главе под названием «Современное состояние инвестиционных вложений в не нефтяной сектор Азербайджанской Республики и его оценка» рассмотрены внутренние и внешние инвестиции в не нефтяном секторе; роль государственных инвестиций в развитии не нефтяного сектора, также исследована роль инвестиций в социально экономическом развитие регионов.

В III главе озаглавленной «Эффективные возможности использования инвестиций а также их регулирования в не нефтяном секторе» затронуты вопросы совершенствования государственного регулирования в повышение инвестиционной активности в не нефтяном секторе, в том числе направления повышения эффективности инвестиций в направленных в эту сферу и др.

В заключительной части работы даны выводы и предложения полученные в результате проведенного исследования.

## SUMMARY

**Rustam Akif Askarov**

## Investing in non-oil sector of Azerbaijan and its regulation

Dissertation work contains introduction, three chapters, conclusions and proposals, list of used literature.

The introduction covers the issues dealing mainly with the urgency of the theme, aims and tasks of the research work, its essential theo-methodological problems and its scientific innovation and practical importance.

In I chapter, named by “Theoretical–methodological principles of development in non-oil sector”, there are considered the legal economic principles of non-oil sector and direction of its realization, also the role of non-oil sector is researched in modernization of national economy; hereinafter the analysis of dynamic of development of non-oil sector of Azerbaijan is considered;

In II chapter under the name of “Modern condition of investments out of oil sector of the Republic of Azerbaijan and its evaluation” are considered domestic and foreign investments out of oil sector; role of governmental investments in the development of non-oil sector, also the role of investments in social economic development of the regions are researched.

In III chapter named by “Effective opportunities of usage of investments, also their regulation in non-oil sector” the issues of improvement state regulation in increasing investment activity in non-oil sector, also the direction of increasing the effectiveness of investments directed to this sphere etc are discussed. In the final part of the work, the conclusions and offers obtained in the result of conducted research are issued.

Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 021, tiraj 100

**Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi**

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВ( СКОГО ХОЗЯЙСТВА**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

---

# АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ

==========================================

*На правах рукописи*

**Рустам Акиф оглу Аскеров**

# Вложение инвестиций в не нефтяной сектор Азербайджана и его регулирование

**5308.01 – «Общая экономика»**

## АВТОРЕФЕРАТ

диссертации на соискание научной степени
доктора философии по экономики

**Гянджа– 2016**